# Hesabat yığıncağı keçirilib

Yanvarın 23-də Nic Qəsəbə İnzibati Ərazi Nümayəndəliyinin 2017-ci ildə sosial-iqtisadt sahədə gördüyü işlər, 2018-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat iclası keçirilmişdir.





İclasda qəsəbə inzibati ərazi nümayəndəsi İbrahim Məmmədov ötən il ərazidə sosial-iqtisadi sahədə həyata keçirilən layihələr, aparılan abadlıq-quruculuq işlərinə dair geniş məruzə etmişdir.

Məruzəçi hesabat ilində qəsəbənin abadlaşdırılması, əhalinin sosial problemələrinin həll edilməsi istiqamətində görülən işlərlə bağlı geniş məlumat vermişdir.

Hesabat iclasında qəsəbə ağsaqqalı Frans Vartanov, YAP qəsəbə ərazi ilk təşkilatının sədri Rövşən Balayev, Udi Mədəniyyət Mərkəzinin rəhbəri Oleq Danakari, 3 nömrəli qəsəbə tam orta məktəbin müəllimi Şahid İslamov, qəsəbə sakini Allahverdi Xasməmmədov, 4 nömrəli məktəbin müəllimi Əvəz Məmmədov, Udi Xristian Pravoslav Dini İcmasının üzvü Rafik Danakari və digərləri çıxış etmişlər.

Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov 2017-ci ildə ölkədə, o cümlədən Qəbələ rayonunda sosial-iqtisadi sahədə həyata keçirilən layihələr barədə məlumat vermiş, Nic qəsəbə intizabi ərazi nümayəndəliyi tərəfindən görülən işləri təhlil etmişdir.

Abil Ağasəfov həmçinin sosial-iqtisadi sahədə bu il qəsəbədə görülməsi nəzərdə tutulan işlərin icrası ilə bağlı inzibati ərazi nümayəndəliyinin fəaliyyətinin istiqamətləndirilməsi üçün tövsiyələrini vermişdir.

İclasda qərar layihəsi qəbul olunmuşdur

**«Qəbələ»**

*Qəbələnin coğrafiyası xarici və ölkə turistlərini cəlb etmək üçün bütün turizm növlərinin təşkilinə imkan verir. Hələ 2002-ci ildə ümummilli liderimiz Heydər Əliyev burada səfərdə olarkən bölgənin gözəlliyinə məftun olduğunu bildirmiş və Qəbələ gecələrini İsveçrə gecələrinə bənzətmişdi. Həmin vaxtdan da bu diyarın çiçəklənməsinin bünövrəsi qoyulmuşdur.*

# Qəbələ-dünyanın nadir turizm mərkəzlərindən biri



Rayonumuzun gözəl təbiəti, tarixi abidələri, yüksək səviyyəli turizm infrastrukturu, burada beynəlxalq standartlara uyğun göstərilən peşəkar xidmət son illərdə turistlərin Qəbələyə olan marağını artırıb. Rayonda yaradılan müasir turizm infrastrukturu nəinki isti yay fəslində, hətta soyuq qış aylarında da turistlərin diqqətini cəlb edir. Hazırda Qəbələdə irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyət göstərir. Həmin obyektlərdən 20-si beş, dörd və üçulduzlu otellər və müasir istirahət mərkəzləridir. "Qafqaz" brendi altında fəaliyyət göstərən beşulduzlu otellər, o cümlədən “Qafqaz Resort”, “Qafqaz Riverside”, “Qafqaz Sport”, “Qafqaz Karvansaray” otelləri xidmətin səviyyəsinə görə ölkənin ən qabaqcıl otelləri sırasındadır. Ümumilikdə, rayondakı turizm obyektlərində gün ərzində 3000 qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.

Turist axının artmasına səbəb bu sahədə xidmət keyfiyyətinin daha yüksək səviyyədə olması ilə bərabər, əvvəlki illərlə müqayisədə otel və restoran xidmətlərinin qiymətlərində endirimlərlə də bağlıdır. İki və üçulduz otellərdə daha ucuz qiymətlər təklif edilir. Şəxsi evlərdə qalmaq istəyən hər kəs öz imkanlarına uyğun məkan seçə biliir.



Maraqlıdır ki, turistlər milli yeməklərimizə daha çox üstünlük verirlər. Çünki Azərbaycan kulinariyası tarixi kökləri və özünəməxsusluğu ilə seçilir və regionun xüsusiyyətlərini özündə birləşdirir.

Turist sayının çoxalması eyni zamanda bir tərəfdən yuxarıda qeyd etdiyimiz amillərlə, digər tərəfdən də Qəbələnin son vaxtlar beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, bu rayona rəsmi və işgüzar səfərə gələn tanınmış siyasi və ictimai xadimlərin, iş adamlarının sayının ildən-ilə artırması ilə bağlıdır.

“Tufandağ” Qış-Yay İstirahət Kompleksi, Stend və Ox Atıcılığı Kompleksi, “Qəbələnd” İstirahət və Əyləncə Mərkəzi turistləri daha çox cəlb edir.

Dövlət başçılarının Heydər Əliyev Konqres Mərkəzində keçirilən zirvə görüşlərinin, burada təşkil olunan ənənəvi beynəlxalq musiqi festivallarının, rəsm sərgilərinin, idman yarışlarının sorağı bu gün dünyanın hər yerinə yayılıb. Festivala dünyanın hər yerindən məşhur musiqiçilər, bəstəkarlar, tanınmış ifaçılar, məşhur fırça ustaları, tanınmış idmançılar toplaşır, çoxsaylı turistlər gəlir. Musiqi həvəskarları ABŞ, Rusiya, İngiltərə, Fransa, İtaliya, İsrail, Azərbaycan və digər ölkələrin məşhur musiqiçilərinin ifasında nadir musiqi nümunələri dinləyir, təsviri sənət pərəstişkarları unikal boyakarlıq, qrafika və digər janrlarda işlənilmiş tabloları seyr edir, idman həvəskarları yarışları izləyir.

Ölkəmizin beynəlxalq nüfuzunun artması istiqamətində turizm işinin yüksək səviyyədə təşkilində mədəniyyət, incəsənət və idman tədbirləri mühüm rol oynayır.

Rayonumuza gələn qonaqlar müasir turizm obyektlərində dincəlir, tarix və mədəniyyət abidələri ilə tanış olur, Qəbələnin əsrarəngiz təbiətini seyr edirlər.

Turizm həm də ölkəmizin, zəngin mədəniyyətimizin, dünyada tanıdılmasında, təbliğ olunmasında vacib rol oynayır.



Turistləri bölgəyə cəlb edən səbəblərdən biri də onun bitki və heyvanat aləmi ilə qeyri-adi dərəcədə zəngin olmasıdır. Onun meşələrində, dağlarında və düzənlərində çoxlu sayda dünyanın çox az qismində təsadüf olunan nadir heyvanlara və quşlara rast gəlmək olar. Məşhur “Rus meşəsi”, mənzərəli Bum, Nic, Vəndam qəsəbələri, Qəmərvan, Yengicə, Nohurqışlaq, Həmzəli, Durca, Bunut kəndləri turistlərin ən çox səfər etdikləri məkanlardandır. Həmçinin rayondakı səs-li-küylü Dəmiraparan, Türyan, Tikanlı, Bum, Vəndam dağ çayları və digər kiçik çaylar, Muçux, Yeddigözəl şəlalələri, fıstıq, palıd, vələs və ardıc meşələri, mineral bulaqları da əcnəbi qonaqların həvəslə gəzdikləri yerlərdəndir.

Rayonun təbii iqlim şəraiti də burada turizmin inkişafı üçün yeni perspektivlər açır. Relyefi müxtəlif olan Qəbələnin şimal hissəsi Böyük Qafqaz dağ silsiləsinin cənub yamacına, mərkəzi hissəsi Alazan-Həftəran vadisinə, cənub hissəsi isə Acınohur ön dağlığına daxildir. Respublikanın ən yüksək dağ zirvəsi olan Bazardüzü (4466 metr) bu rayonun ərazisində yerləşir.

Dağ turizminin həvəskarları üçün ilin müxtəlif fəsillərində “Tufandağ” Yay-Qış İstirahət Kompleksinə gələn turistlərin gecələməsindən ötrü kompleksin ərazisində Qafqaz Tufandağ Mountain Resort Hotel fəaliyyət göstərir.

Görülən işlərin nəticəsidir ki, 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ölkəmizdə davam edən tətil günlərində Qəbələdə, o cümlədən bu kompleksdə istirahət edən turistlərin sayı xeyli artıb. Həmin günlərdə rayona gələn yerli və xarici turistlərin ixtiyarına əyləncə mərkəzləri və attqaksionlar verilib. Əsasən də hava şəraitinə uyğun gəzinti və ekskupsiyalar, o cümlədən qayıqla balıq ovu və qış fəsli üçün ən maraqlı olan qarlı havada motorlu xizəkdə gəzinti təşkil olunub.

Qəbələdə turizm işi üzrə yüksək ixtisaslı kadrların və ciddi peşə hazırlığının olması turistlərin buraya yenidən məmnuniyyətlə gəlməsinə stimul yaradır. Turizmin geniş vüsət alması rayonun sosial-iqtisadi inkişafında önəmli rol oynayır.

Rayonda bu istiqamətdə görülən çox böyük işlərin nəticəsində Qəbələ artıq dünyanın aparıcı turizm mərkəzlərindən birinə çevrilib.

**Varis YAQUBOV,**
**“Qəbələ”**